# Süni intellekt və media reallığı: Şuşa Forumunun geosiyasi əhəmiyyəti




*Qloballaşmanın informasiya mərhələsi artıq yeni dönəmə qədəm qoyub. İnformasiya texnologiyalarının təkamülü, sosial medianın yaratdığı psixoloji və siyasi dəyişikliklərdən sonra indi dünyanın diqqət mərkəzində süni intellekt dayanır. Sosial media platformalarının cəmiyyətləri hörümçək toru kimi bürüməsi, informasiya təhlükəsizliyini təhdid edən feyk xəbərlər, dezinformasiya kampaniyaları və kütləvi manipulyasiya mexanizmləri üzərində davam edən diskussiyalar hələ səngiməmiş bu gün qlobal informasiya məkanında daha mürəkkəb vəziyyət yaranır.*

İctimai diskussiyalar artıq "sosial media imkandır, yoxsa təhlükə?" sualından "süni intellekt fürsətdirmi, yoxsa təhdid?" dilemmasına keçid alıb. Bu dəyişiklik mədəni, etik, hüquqi və siyasi ölçülü transformasiyadır. Münasibətlər kökündən dəyişir, qərarların qəbul olunma prosesi, təhlil metodları və hətta informasiyanın özü artıq süni intellektin müdaxiləsi ilə yenidən formatlaşdırılır. Məhz bu transformasiyanın aktuallığını və universallığını nəzərə alaraq Azərbaycanın ev sahibliyi etdiyi III Şuşa Qlobal Media Forumu bu il "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusuna həsr olunub. Forumun konseptual çərçivəsi qlobal informasiya təhlükəsizliyi və media sistemlərinin süni intellekt qarşısında adaptasiya bacarığını əhatə edir. 50-dən çox ölkədən jurnalist və ekspertin bu platformada iştirak etməsi Forumun regional deyil, qlobal nüfuza sahib olduğunu bir daha təsdiqləyir. Azərbaycanın belə mötəbər və strateji mahiyyət daşıyan tədbirlərə ev sahibliyi etməsi təsadüfi deyil. Bakı artıq təkcə geosiyasi sabitlik mərkəzi kimi deyil, həm də qlobal çağırışların müzakirə edildiyi, həll yollarının axtarıldığı və təşəbbüslərin irəli sürüldüyü bir platforma kimi qəbul olunur.

COP29-a ev sahibliyi etməsi və növbəti il Bakıda Dünya Şəhərsalma Forumunun keçirilməsi Azərbaycanın beynəlxalq mövqeyinin və onun gündəmin formalaşmasında aktiv rol oynadığını göstərir. Bu beynəlxalq tədbirlər Azərbaycanın beynəlxalq aləmdə qazandığı etibarlı tərəfdaş statusunu daha da möhkəmləndirir. Ölkəmizin missiyası sadəcə tədbirlərə texniki ev sahibliyi etmək deyil, həm də ideyaların generasiyası, problemlərin həllinə yönəlik təşəbbüslər və konsensusa gəlməkdə aktiv vasitəçi kimi çıxış edir. Bunun bariz nümunələrindən biri COVID-19 pandemiyası dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasında peyvəndlərin ədalətli bölgüsünü nəzərdə tutan və "peyvənd millətçiliyi"ni qınayan qətnamələrin qəbuludur. Bu təşəbbüs inkişaf etməkdə olan ölkələrin həyat və ölüm məsələsi olan vaksinə çıxış hüququnun müdafiəsi baxımından əhəmiyyətli idi. Habelə, 2024-cü ildə keçirilmiş COP29 sammitində iqlim maliyyələşməsi üzrə konsensusun əldə olunması qlobal şimal və qlobal cənub arasındakı illərlə davam edən fikir ayrılığı Azərbaycanın diplomatik bacarığı ilə öz həllini tapdı.



Azərbaycanın Şuşada Qlobal Media Forumuna ev sahibliyi etməsi ölkənin informasiya texnologiyaları və media sahəsində dünyada formalaşan qlobal trendləri yönləndirmək iddiası kimi qiymətləndirilməlidir. Azərbaycan qlobal informasiya arxitekturasını formalaşdıran əsas oyunçulardan biridir. Bu, həm milli maraqların qorunması, həm də müasir dövrün çağırışlarına hazırlıq baxımından strateji zərurətdir. Prezident İlham Əliyev Forum iştirakçıları ilə görüşündə bildirdi ki, biz dünyadakı tendensiyaların arxasınca getməliyik. Bu, Azərbaycanın sözügedən sahədəki mövqeyini aydın şəkildə ortaya qoyur. Eyni zamanda aktiv şəkildə adaptasiya olunmaq və milli maraqlara uyğun qərarvermə mexanizmləri qurmaq ehtiyacının təzahürüdür. Bu kontekstdə Prezident İlham Əliyev tərəfindən 2025-2028-ci illəri əhatə edən "Süni İntellekt Strategiyası"nın təsdiqlənməsi isə Azərbaycanın rəqəmsal transformasiyaya yanaşmasının uzunmüddətli planlamaya əsaslandığını göstərir. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təqdim etdiyi sənəd ölkədə süni intellekt sahəsində inkişafı sürətləndirmək, rəqəmsal iqtisadiyyatı dəstəkləmək və Azərbaycanın qlobal rəqəmsal ekosistemdə yerini gücləndirmək məqsədi daşıyır.

Bütün bunlar sübut edir ki, rəsmi Bakı süni intellektə sadəcə texnoloji yenilik kimi deyil, strateji inkişaf vektoru kimi baxır. Bu yanaşma həm iqtisadi dayanıqlılığın artırılması, həm də informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Azərbaycanın mövqeyi yeni texnologiyaya qarşı mühafizəkar və qoruyucu yanaşmadan uzaqdır. Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözlərinə görə, texnologiyalara və innovasiyalara qarşı çıxmaq "yel dəyirmanları ilə döyüşmək" kimidir: mənasız və nəticəsiz. Lakin bu, texnoloji nikbinliyə tənqidsiz yanaşmaq anlamına gəlmir. Hikmət Hacıyev çıxışında süni intellektin yaratdığı risklərə də diqqət çəkərək həqiqətin doğrudan da nadir və dəyərli olması ilə bağlı xəbərdarlıq edib. Bu fikir süni intellektin dezinformasiyanın sürətini və təsir gücünü daha da artırmaq potensialına işarədir. Beləliklə, Azərbaycanın rəqəmsal siyasəti balanslıdır ki, bir tərəfdə irəliləyişə açıq olmaq, digər tərəfdə isə bu texnologiyanın doğura biləcəyi etik, siyasi və sosial təhdidlərə qarşı ayıq qalmaq. Bu kontekstdə III Şuşa Qlobal Media Forumu öz aktuallığı və məzmun dərinliyi ilə seçilir. Forum dünya ölkələrinin informasiya siyasətlərini yenidən düşünməyə təşviq edən intellektual meydandır. Amma sual yaranır ki, bu cür beynəlxalq tədbir Azərbaycanın özü üçün nə dərəcədə əhəmiyyətlidir? Qlobal çağırışlara cavab axtaran Forum eyni zamanda dövlətimizin informasiya təhlükəsizliyi, yumşaq güc strategiyası və suverenlik narrativi baxımından hansı funksiyanı yerinə yetirir? İlk növbədə, Forumun adına diqqət yetirək. Şuşa Azərbaycanın dövlətçilik tarixində müstəsna məna daşıyır. Forumun məhz işğaldan azad edilmiş ərazilərdə keçirilməsi dünyaya ünvanlanan açıq və siyasi mesajdır. Birincisi, Azərbaycan öz ərazilərində suveren hüquqlarını tam icra edir. Həmçinin, Qarabağ regionunda təhlükəsizlik və inzibati sabitlik təmin olunub. Azad edilmiş torpaqlar beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Bu amil Azərbaycanın postmünaqişə dövründə bölgədə normallaşma və reinteqrasiya prosesini uğurla həyata keçirdiyini nümayiş etdirir. İkincisi, süni intellektin informasiya mühitinə nüfuzu mediada yeni reallıqlar yaradıb (feyk xəbərlər, dərin saxta videolar (deepfake), alqoritmik manipulyasiyalar və məlumat bolluğu içində həqiqətin təhrif olunması buna daxildir). Qeyd olunan çətinliklər fonunda Forumda aşağıdakı mövzular yenidən aktuallaşdı: qlobal media strukturunda ədalətli və balanslı informasiya mühitinin qurulması, Qərb mediası ilə Qlobal Cənubun media yanaşmaları arasındakı epistemoloji fərqlər və süni intellektin informasiya siyasətlərinə təsiri və ona qarşı hüquqi-etik tənzimləmələrin axtarışı. Bu mövzuların müzakirə edildiyi neytral və inklüziv platforma rolunda çıxış etmək Azərbaycanın beynəlxalq nüfuzunu artırır və ölkəyə qarşı yönələn informativ hücumlara qarşı ideoloji sipər rolunu oynayır. III Şuşa Qlobal Media Forumu həm də Azərbaycanın "yumşaq güc" siyasətinin tərkib hissəsi kimi çıxış edir. Burada təkcə jurnalistlər deyil, ictimai rəy formalaşdıran analitiklər, ekspertlər, fikir adamları iştirak edirlər ki, bu auditoriya vasitəsilə Azərbaycanın haqlı mövqeyi beynəlxalq rəyə çatdırılır, ölkəyə qarşı yönələn saxta narrativlər ifşa edilir, Azərbaycan imicinin gücləndirilməsinə xidmət edən informasiya cəbhəsi formalaşdırılır. Forum, bu mənada, informasiya diplomatiyasının mühüm elementi, siyasi kommunikasiya vasitəsi və intellektual güc mərkəzi kimi fəaliyyət göstərir.

III Şuşa Qlobal Media Forumu təkcə beynəlxalq jurnalistikanın aktual problemlərinin müzakirəsi ilə məhdudlaşmır, eyni zamanda Azərbaycan mediasının inkişafı, peşəkar əlaqələrin qurulması və beynəlxalq məkanda daha fəal mövqe tutması üçün platforma rolunu oynayır. Birincisi, Azərbaycan mediasının beynəlxalq əlaqələrinin dərinləşdirilməsi və təcrübə mübadiləsi. İkincisi, regional media platformalarının yaradılması üçün ideya və tərəfdaşlıq imkanları və ortaq media layihələri vasitəsilə Qlobal Cənubun media gündəliyinə çıxış üstünlüyü. Eyni zamanda, bu cür tədbirlər yerli jurnalistlər üçün qlobal media mühitində baş verən tendensiyaları yerində izləmək, jurnalistikanın etik prinsiplərini tətbiq etmək və peşəkar inkişafla bağlı yeni üfüqlər açmaq baxımından əvəzsizdir.

Bir məqamı da qeyd edək ki, Qarabağ münaqişəsi hərbi-siyasi müstəvidə aparılsa da, paralel şəkildə informasiya məkanında da mübarizə davam etdirilir. Dezinformasiyalar, beynəlxalq ictimai rəyə təsir göstərmək cəhdləri və həqiqətlərin təhrif olunması bu münaqişənin informasiya ölçüsünü daha da önəmli etdi. Forumda bu məsələlər ayrıca müzakirə predmeti kimi ön planda idi. İnformasiya təhlükəsizliyi və rəqəmsal suverenlik, dezinformasiyaya qarşı effektiv mübarizə strategiyaları, Azərbaycan mediasının beynəlxalq təzyiqlər qarşısında informasiya müqavimət qabiliyyəti də mühüm müzakirə mövzularından idi. Forum həm də yerli media üçün xarici jurnalistlərlə birbaşa təmas qurmaq, medianın etik və peşəkar standartlarını yüksəltmək baxımından strateji əhəmiyyət daşıyır.

**N.ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 23 iyul (№ 150).- S.5.